# Tampon ərazi suriyalılar üçün təhlükəsiz sığınacaq yeridir



ARABIAN GAZETTE

MIDDLE EAST | SECTORS | INTERVIEWS | ARABIAN PLUS! | VIDEOS | BLOG | CULTURE | INFOGRAPHICS

## Buffer Zone: A Safe Haven for the Syrians

Posted by Harun Yahya / October 2, 2014

Children eating food at a refugee camp in Turkey along the Syrian border. Photo courtesy-IHH

Wars are not solely military phenomena; they involve civilians, women, children and the elderly, raze cities and destroy the infrastructure of countries. The worst evil is that people treat one another with love-lessness and hatred. In the absence of love – the food of life – only destructive violence and suffering prevail. The civil war in Syria that began in March 2011 continues to cost thousands of lives and create devastated 'dead' cities.

As the jets of the regime destroy whole towns with barrel bombs, various opposition groups are fighting among themselves for territorial advantage. To that has now been added the bombs of an international coalition initiated to destroy ISIL.

More than three million buildings in Syria have been destroyed and more than 200,000 people have been killed, 160,000 of them civilians. At least 6,000 people have been shown to have been tortured, while increasing hunger, thirst and poor health conditions are worsening living conditions. Bearing in mind that 18,000 of the civilians killed were children, and 16,000 were women, we can obtain a better picture of the scale of the horror in the country. Some 10 million innocent Syrians have abandoned their homes in a bid to escape the slaughter; around four million of these have had to seek safety as refugees in other countries.

Recent Activity

Interview with Pankaj Chaddah - Co-founder Zomato.com
4 people recommend this.

UAE to use drones for government services delivery [VIDEO] - www.arabiangazette.com
59 people recommend this.

Saudi Arabia actively promoting e-health services - arabiangazette.com
3 people recommend this.

Dubai Drydocks World eyeing Asia joint venture
4 people recommend this.

Facebook social plugin

TAGS | LATEST POSTS | RECENT COMMENTS

ABU DHABI airbus apple Arab Spring aviation bahrain Banking China Dubai ECONOMY EGYPT Emirates Airlines Etihad Airways EU eurozone crisis facebook GCC global recession google Gulf imf India Iran Iraq Jordan kuwait Libya MENA middle east morocco oil oman politics qatar qatar airways saudi arabia social media society SYRia Technology Tourism turkey UAE usa US sanctions on Iran

Müharibələr təkcə hərbi ünsürləri yox, eyni zamanda uşaq, qadın, yaşlı demədən sadə vətəndaşları vurmağa, şəhərləri yerlə yeksan etməyə, ölkələri məhv etməyə səbəb olur. Zülmün ən böyüyü isə insanların bir-birinə qarşı nifrətlə və sevgisiz şəkildə münasibət göstərməsidir. İnsanın həyat mənbəyi, ruhunun qidası olan sevgi olmasa, hər yeri qəddarlıq və nifrət bürüyər. 2011-ci ilin mart ayında başlayan daxili münaqişə minlərlə insanın ölümünə səbəb olub və məhv edilmiş "ölü şəhərlər" yaranmağa davam edir.

Bir tərəfdən, rejim təyyarələri şəhərləri barel bombaları ilə yerlə yeksan edir, digər tərəfdən də müxtəlif müxalif qruplaşmaların öz aralarındakı ərazi əldə etmək məqsədi ilə münaqişələri davam edir. İndi buna bir də İŞİD-i məhv etmək üçün başladılan beynəlxalq koalisiyanın bombaları əlavə olundu.

Suriyada 3 milyondan çox bina uçuruldu, 160 min nəfəri sadə vətəndaş olmaqla 200-dən çox insan həyatını itirdi.

Ən az 6 min insana işgəncə verildiyi müşahidə edilir, həmçinin aclıq, susuzluq və sağlıqlarının pisləşməsi isə həyat standartlarını daha da çətinləşdirir. Əgər düşünsək ki, həyatını itirən sadə vətəndaşların 18 min nəfəri uşaq, 16 min nəfəri qadınlardır, onda ölkədəki faciəvi vəziyyəti daha da yaxşı başa düşərik.

Məhz bu dəhşətli vəziyyətdən yaxa qurtarmaq üçün qaçmağa çalışan 10 milyon məzlum suriyalı evlərini tərk etməyə məcbur oldu. Bunların 4 milyona yaxını da xarici ölkələrdə qaçqın kimi sığındı.

Suriya ilə 911 km-lik sərhədlə qonşu olan Türkiyə isə təxminən 1,5 milyon qaçqına qapı açaraq onlara sahib çıxdı. Türkiyə bu insanlara hər biri bir rayon böyüklüyündə olan 24 çadır şəhərciyi qurdu, bu müddətdə 3,5 milyard dollar pul xərclədi. Qaçqın sayının isə ilin axırına qədər 2 milyona çatacağı təxmin edilir.

Son zamanlarda təkcə İŞİD hücumlarından qaçan 170 min suriyalı qısa müddətdə Türkiyəyə sığındı. Hətta bunların 138 min nəfəri 2-3 gün ərzində köç edərək ölümdən xilas olmaq üçün qaçıb gəldilər.

Bu rəqəm Avropanın 3,5 ildə qəbul etdiyi qaçqın sayına bərabərdir. (Çətin vəziyyətdə qaldıq deməmək üçün nəzakətlə) Suriyadan 2 milyona yaxın insan can hayı ilə qaçarkən onları sərhəddə gözlətmək düzgün deyil. Çünki onlar ölə bilərlər. Eynilə, sərhəd belə nəzarətsiz vəziyyətdə olarkən gələn insanları yoxlamaq çox çətindir. Əgər gələnlər arasında beynəlxalq terror cinayətkarı varsa, bu şəraitdə onları ayırd etmək də mümkün deyil. Ölkəyə daxil olan insanlar yenidən Suriyaya qayıtmaq istədikdə də kimin nə üçün qayıtmaq istədiyini müşahidə etmək də çətindir. Beləliklə, oradakı təhlükəli xətt sadəcə ölüm təhlükəsinə deyil, dünyanı da təhlükəyə salan təcavüzkar qrupların ərazidə asanlıqla yerləşməyinə səbəb olur.

Münaqişədən, davadan, ölümdən qaçan insanların təhlükəsiz şəraitdə yaşayacaqları bir əraziyə ehtiyacları var. Bu cəhətdən bəşəriyyət üçün ən doğru beynəlxalq qərar Suriyanın Türkiyə sərhədi boyunca təhlükəsiz ərazi yaratmasıdır. Əsəd rejimindən, İŞİD-dən, PKK-dan və digər bütün təhlükəli qruplaşmalardan qoruna biləcəkləri, oradakı xalqın təhlükəsiz yaşayacağı bir sahə yaratmaq ən vacib şərtdir. Beləliklə, BMT-in qərarı ilə yaradılacaq tampon ərazi qərarı ilə milyonlarla insanın təhlükəsiz və dinc yaşayacağı şərait yaranacaq. Beləliklə, insanlar bütün dünyada sevginin məhv olmadığını, sevginin nifrətə qalib gəldiyini görəcəklər. Deməli, bu bəşəriyyəti rahatladan bir qərar olacaq.

ABŞ Baş Qərargah Rəisi Dempsey tampon ərazinin bir nöqtədə bir ehtimal olacağını, ancaq davam edən aksiyanın bir parçası olmadığını bildirir. ABŞ Konqresinin Xarici İşlər Komitəsinin nümayəndəsi və cumhuriyyətçi vəkil Adam Kinzinger isə Suriya -Türkiyə arasındakı sərhədə ziyarətindən sonra Suriyada insani səbəblərə görə uçuş üçün qadağa edilən ərazi elan edilməli olduğunu bildirir. Təcili olan da elə budur. İndi artıq suriyalılara sevgimizi, şəfqətimizi, zalımlara da dünyanın sahibsiz olmadığını göstərməyin vaxtıdır.

**Adnan Oktarın Arabian Gazettedə nəşr edilən məqaləsi:**

http://www.arabiangazette.com/buffer-zone-safe-haven-syrians/

https://www.harunyahya.info/az/meqaleler/tampon-erazi-suriyalilar-ucun-tehlukesiz-siginacaq-yeridir-18817